ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (2), ss 1097-1111
Academic Journal of History and Idea, 2019, 6 (2), pp 1097-1111
Araştırma Makalesi
Original Article

# Ərəb Mənbələrində Arran Şəhəri Tiflis

**Şahlar Şərifov** [*]
**ORCID: 0000-0002-0395-5174**

**Öz**

Xilafət dövründə Arran deyildikdə əsasən Azərbaycan Albaniyasının əraziləri nəzərdə tutulurdu. Orta əsr ərəb mənbələri, səyyahları, coğrafiyaşünasları Tiflisin Arranda üçüncü böyük şəhər olduğunu qeyd edirlər. Eyni zamanda strateji əhəmiyyətinə görə Tiflisi İslamın sərhəd şəhəri adlandırıblar. Əhaliyə gəlincə Tiflisin əhalisi sünni məzhəbindən olan müsəlmanlardan ibarət olmuşdur. Şəhəri isə Cəfərilər sülaləsi idarə etmişdir. Bu ərazilərdə tarixən türk mənşəli buntürk və hunlar yaşamışlar. Tiflisdə türk mənşəli yer adlarının olması, Tiflisin cənubuna qədər olan ərazilərdə Azərbaycan türklərinin kompakt məskunlaşması, tədqiqatçılar tərəfindən əmirliyin tarixinin və mənşəyinin saxtalaşdırılması məsələsinə xüsusi diqqət yetirməyi daim aktual və zəruri edir. Ərəb müəlliflərinin əsərlərində Tiflisin Arranın – Albaniyanın – Şimali Azərbaycanın sərhəd şəhəri kimi qeyd edildiyi, əhalinin eynilə Azərbaycan əhalisi kimi sünni müsəlmanlar olduğu nəzərə çarpır. Gürcü mənbələri Tiflis ətrafı ərazilərdə qədimdən türk tayfalarının məskunlaşmasını qeyd etməklə buraların türk torpağı olduğunu qeyd etmiş, Tiflis haqqında ilk dəfə IV əsrin II yarısında, buranın Sasani qoşunları tərəfindən müdafiə qalası kimi istifadə edilməsindən sonra məlumat vermiş, bununla da şəhərin IV əsrə kimi onlara yad olduqlarını göstərmişlər.

**Açar sözlər:** Arran, Tiflis, Curzan, Dəbil, Həbib ibn Məsləmə, Salman ibn Rəbiə

**Gönderme Tarihi: 15/03/2019** **Kabul Tarihi:22/06/2019**

[*] *Dr., Azerbaycan Milli İlimler Akademisi, A.A.Bakıhanov adına Tarih Enstitüsü, E-Posta:shahlarsharifov@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır
CC BY

# Arab Sources on Arran city Tiflis

**Şahlar Şərifov**

**ORCID: 0000-0002-0395-5174**

**Abstract**

During the Arab Caliphate, all the lands of Albania were part of Arran. Medieval Arab historians say that Tiflis was the third largest town in Arran. Tiflis also described as a border town of Islam. The population of the city of Tiflis is composed of Muslims from the Sunni sect. City was under the jurisdiction of the Muslim Jafarid dynasty.The presence of Turkic origin in Tiflis the compact settlement of the Azerbaijan Turks in the southern part of Tiflis, and the fact that the researchers are paying special attention to the issue of the history and origin of the emirate are urgent and necessary. Georgian sources point to the location of the Turkic tribes in the surrounding areas of Tiflis, saying that these are Turkic lands, for the first time in the IV century of the IV century, after the use of the Sasani troops as a defensive fortress, showing that the city was remembered by the IV century.

**Keywords:** Arran, Tiflis, Curzan, Debil, Habib ibn Maslama, Salman ibn Rabia

**Received Date: 15/03/2019** **Accepted Date: 22/06/2019**

# Арабские источники о городе Аррана Тифлисе

**Резюме**

Во время арабского халифата все земли Албании были частью Аррана. Средневековые арабские историки, путешественники, географы говорят, что Тифлис является третьим по величине городом в Арране. В то же время Тифлис также называют пограничным городом Ислама для его стратегического значения. Что касается населения, то отмечается, что население города Тифлис состоит из мусульман из секты суннитов. Город быль под юрисдикцией мусульманской династии Джафаридов.В этих районах исторически сложились турецкие бунтюрки и гунны. Наличие турецкого происхождения в Тбилиси, компактное поселение азербайджанских турок в южной части Тифлиса и тот факт, что исследователи уделяют особое внимание вопросу истории и происхождения эмирата, являются насущными и необходимыми.В работах арабских авторов очевидно, что Тифлис называется Арран - Албания - пограничный город северного Азербайджана, а население - мусульмане-сунниты, точно так же, как население Азербайджана.Грузинские источники указывают на расположение турецких племен в окрестностях Тифлиса, сообщая, что это турецкие земли, впервые в IV веке IV века, после использования сасанских войск в качестве оборонительной крепости, показывая, что город запомнился в IV веке.

**Ключевые слова:** Арран, Тифлис, Джурзан, Дебил, Хабиб ибн Маслама, Салману ибн Рабиа

**Получено: 15/03/2019** **Принято: 22/06/2019**

## Giriş

Orta əsr müəlliflərinin verdikləri məlumatlardan məlum olur ki, orta əsr Azərbaycan şəhərləri əsasən, düşməndən müdafiə, basqın və hücumlardan mühafizə olunmaq üçün hasar və xəndəklərlə əhatə olunurdu. Erkən orta əsr Azərbaycan şəhərlərindən biri də Tiflis şəhəridir. Hələ antik dövrdən Tiflis şəhərinin Azərbaycan Albaniyasının qərb torpaqlarına daxil olduğu, Azərbaycan Albaniyasının qərb sərhədlərinin indiki Dəryal keçidindən başladığı, Tiflislə yanaşı, Telavi kimi iri şəhərləri də öz sərhədləri daxilinə saldığı, İberiya və Albaniya sərhədinin Tiflisdən qərbdə - Araqvi ilə Kürün birləşdiyi yerdə axtarmağın lazım olduğu qeyd edilir. Ərəb Xilafəti dövründə Azərbaycan Albaniya dövlətinin bütün torpaqları Arranın tərkibində idi. Ərəb tarixçiləri, səyyahları, coğrafiyaşünasları Tiflisi Arranın üçüncü böyük şəhəri olaraq qeyd edirlər. Strateji əhəmiyyətinə görə isə Tiflis İslamın sərhəd şəhəri kimi təsvir edilir. Mənbələr əsasında qeyd etmək olar ki, Tiflis şəhərinin əhalisi sünni məzhəbindən olan müsəlmanlardan ibarət olmuşdur.

IX əsrin əvvəllərindən Tiflisdə yeni siyasi qurum – Xilafətdən asılı olmayan əmirlik meydana gəlmişdir. Əmirliyin müstəqilliyini Xilafətə qarşı mübarizə kimi dəyərləndirmək deyil, ətraf xristian istilaçılarına qarşı mərkəzin yardımı olmadan da mübarizə aparma əzmi kimi görmək lazımdır. Məhz bunun nəticəsi idi ki, Tiflis əmiri İshaq ibn İsmayıl 829-cu ildə Qars ətrafında Bizans imperatoru Feofilin ordularını məğlub edərək öz nüfuz dairəsini buralara qədər yaymışdı. Lakin, Abbasilərin ucqarları əvvəlcə özündən asılı salmaq məqsədi ilə zəiflətmə siyasəti, daha sonra isə həmin zəiflətdiyi ucqarlara nəzarət edə bilməməsi Tiflis əmirliyini xristian dünyası ilə mübarizədə tək qoydu. Nəticədə Tiflis əmirliyi yavaş-yavaş nüfuz və ərazilər itirməyə başaldı.

## I. İlk İslam fütuhatı

Xəlifə Ömərin (634-644) dövründə Sasani ordularını məğlub edən ərəblər, artıq 639-cu ildə Huzeyfə ibn əl-Yəmanın başçılığı ilə Azərbaycanın cənubunu da tutmuşdular. 642-ci ildə Ərdəbil şəhəri fəth edildikdən sonra Arrana – Şimali Azərbaycana fəth yolu açıldı. Təbəri hicri 22-ci il (642) hadisələrindən danışarkən Surəqa ibn Əmrin başçılığı altında olan ordunun bir qolunuda Həbib ibn Məsləmənin

başçılığında Arran şəhərlərindən olan Tiflisi fəth etməyə göndərdiyini qeyd edir.[1] Bu tarix – 642-ci il Tiflis və ətrafına ilk fəth təşəbbüsü tarixi kimi qeyd edilir. Sürəqa bin Əmr və Həbib ibn Məsləmə də bu fəth hərəkatının təşəbbüskarı olaraq qəbul edilir.

VII əsrin 40-cı illərinin əvvəllərində Dəbili tutaraq burada möhkəmlənən Həbib ibn Məsləmə, xəlifə Osmanın (644-656) dövründə Salman ibn Rəbiə ilə birlikdə Naxçıvanı da tutaraq yerli əhali ilə müqavilə bağlamışdı. Daha sonra Salmanın ordusu Arranın şərq və şimal-şərqinə, Həbibin ordusu isə qərb ərazisinə yürüş etmişdir.[2] Curzan batriqinin elçisi gəldikdən sonra Tiflisə gələn Həbib ibn Məsləmə 646-cı ildə buranın əhalisi ilə aşağıdakı şərtlər əsasında müqavilə bağladı: "Rəhmli və Rəhman Allahın adından. Bu fərman Həbib ibn Məsləmə tərəfindən Tiflis əhalisinə, Məncəlis və Qırmızı Curzandan gələnlərə ona görə verilir ki, onların şəxsən özlərinin, habelə kilsələrinin, monastırlarının təhlükəsizliyi təmin olunacaq, ibadətlərinə və s. dini azadlıqlarına zəmanət veriləcəkdir. Bu halda onlar öz itaətkarlıqlarını etiraf etməli, ailələrinin hər birindən bir dinar hesabı ilə cizyə verməlidirlər...".[3]

Bəlazuri qeyd edir ki, bu müqavilədən sonra Həbib Havarehi, Kisalı (Qazax), Xunanı, Səmsəxini (Samsxe), Cərdmanı, Kustascini (Quştəsfi), Şavşiti, Bazaliti də fəth etdi, buralara da sahib oldu.[4] Bu adlar Quştəsfi istisna edilməklə ümumilikdə götürəndə Qərbi Albaniya torpaqlarına ya da Albaniyanın nüfuz dairəsinə daxil olan ərazilər olub. Quştəsfi isə orta əsrlərdə Kür çayının Xəzər dənizinə töküldüyü yerə verilən ad olub.[5] Bəlazurinin məlumatına əsasən Həbib ibn Məsləmə yaxınlıqdakı digər bölgələr – Klarcet, Trialet, Xaxeti, Xuxeti, Ardaxan, Bab əl-Ləl, sənarilər, dudanilərlə fərqli müqavilələr imzalayıb.

Həbibin tabe etdiyi ərazilər arasında Girdimanı xüsusi qeyd etmək lazımdır. Belə ki, Girdiman heç vaxt gürcülərə mənsub olmamış, daima Mehranilərin əsas qalası

---

[1] Əbu Cəfər Muhamməd ibn Cərir Ət-Təbəri. *Tarix ər-Rusul və-l Muluk, 4-cü cild (Tahqiq Muhamməd Əbu-l Fadl İbrahim)*, Qahirə: Daru-l Maarif bi Mısr, 1970, 157.
[2] Əbu Məhamməd Əhməd ibn Əsəm əl-Kufi. *Kitab əl-Futuh (Təhqiq Ali Şiri) əl-Cuz-ul-Əvvəl, əl-Cuz-us Sani.* Beyrut: Dar-ul Ədva, 1991, 343-344; Əhməd ibn Yəhya ibn Cabir Əl-Bəlazuri. *Kitab Futuh əl-Buldan.* Beyrut: 1987, 285-287.
[3] Bəlazuri, *Fütuh əl-Buldan*, 283-284.
[4] Bəlazuri, *Fütuh əl-Buldan*, 285.
[5] Əhməd ibn Yəhya ibn Cabir Əl-Bəlazuri. "Kitəb Futuhi-l Buldən". *Azərbaycanın VII – IX əsrlər tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Hikmət Əkbərov. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası* içinde, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı: "Nurlan" nəşriyyatı, 2005, 191.

olmuşdur. Hətta bəhs edilən dövrdən az bir vaxt sonra isə Cavanşir xəzərlər üzərində qazandığı qələbəyə görə Girdimanda böyük bir kilsə tikdirmişdir (661-664-cü illər arasında). Moisey Kalankatlı kilsənin iki vilayət arasında tikildiyini qeyd edir.[6] Burada diqqət çəkən məqam kilsənin iki alban vilayəti arasında yerləşməsidir.

İslam dininin yayılması məsələsində də vəziyyət bənzərdir. Həbib ibn Məsləmə Tiflislə Əməvilər dövründə ikinci dəfə yenidən amannamə imzaladıqdan sonra burada İslam dinin təbliğ etməkdən ötrü "Quran əhli və öz aralarındakı ən alim şəxs" olaraq tanıtdığı Abdurrahman ibn Caz əs-Suleymini bura göndərir. Abdurrahmanın uğurlu təbliğ fəaliyyəti nəticəsində şəhər xalqının böyük bir qisminin müsəlman olduğu bildirilir.[7] Abdurrahmanın təbliği ilə yanaşı Yaqutun verdiyi məlumata görə Həbib ibn Məsləmənin yanına gətirilən hədiyyələrin dəyərinin təsbit edilib cizyə vergisinin bir qisminin buradan qarşılanmasının da Tiflisin islamlaşmasına, əhalinin kütləvi şəkildə İslamı qəbul etməsinə təsiri olmuşdur.[8]

## II. Tiflis əmirliyinin yaranması. Müstəqillik uğrunda mübarizə

IX əsr tarixçilərindən olan Əl-Bəlazuri bunları qeyd edir: "Bərdə sakinlərindən Məhəmməd ibn İsmayıl və bəzi şəxslər Əbu Bəraə ibn Bəhrin sözlərinə istinadən ... mənə bir-biri ilə tutuşdurub müqayisə etdiyim aşağıdakı məlumatları söylədilər. ... Curzan – II Ərminiyyə, Sisəcan və Arran isə I Ərminiyyə adlanırdı. Başqalarının dediyinə görə isə ... Sisəcan, Arran, Tiflis – I Ərminiyyə adlanırdı.[9] "Deyirlər ki, sülh müqaviləsi əsasında Həbib Havarehə, ..., Kisala, Xunana, Səmsəxiyə, Cərdmana, Kustasciyə, Şavşitə, Bazalitə sahib oldu və müqavilənin şərtlərinə görə o bu yerlərin əhalisinin qanını tökməməyi, ibadətgahlarına, divarlarına toxunmamağı öhdəsinə götürdü. Bunun əvəzində isə əhali torpaq vergisi-xərac və can vergisi ödəməli idi. O

---

[6] Moisey Kalankatuklu, *Albaniya tarixi. Mxitar Qoş – Alban salnaməsi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur*, Bakı: "Elm" nəşriyyatı 1993, 130.
[7] Ət-Təbəri, *Tarix. IV*, 162; Əbu Cəfər Muhamməd ibn Cərir Ət-Təbəri. "Tarix ər-Rusul va-l-Muluk", *Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Cabir İskəndərli // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası* içinde, AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı: "Nurlan" nəşriyyatı, 2005, 122.
[8] Şihabəddin Əbu Abdullah Yaqut. *Mucəm əl-Buldən. II cild,* Beyrut: Dar Sader, 1977, II, 36;. Gümüş Nebi, *İlk Dönem İslam-Gürcü İlişkileri,* Rize: Karadeniz Basın yayın, 2007, 209.
[9] Bəlazuri, *Fütuh əl-Buldan,* 273.

Qalarcitin, Səryalitin, Xaxitinin, Xuxitinin, Artahalan, Bab əl-Ləlin, sakinləri ilə, habelə sənnarilərlə, dudanilərlə onların vergi ödəmələri şərti ilə sülh müqaviləsi bağladı.[10]

Orta əsr ərəbdilli müəlliflərdən olan Əsəm əl-Kufi Tiflis haqqında bunları qeyd edir: "Əl-Həsən ibn Qəhtəbə Arranda qalıb Bərdədə yerləşdi. O, Qəhtəbə adlı oğlunu yanına çağırıb onu Bab əl-Əbvabın hakimi təyin etdi. İkinci oğlu İbrahimi çağırtdırıb, Curzanın hakimi təyin etdi və Tiflisdən o yana müsəlman torpaqlarının idarəsini ona tapşırdı. Üçüncü oğlu Məhəmmədi çağırtdırıb, Xilat və Qaliqaladan o yana torpaqların idarəsini ona verərək Ərminiyyəyə hakim təyin etdi.[11]

Ət-Təbəri "Tarix" əsərində Həbib ibn Məsləmə ilə Tiflis əhli arasında bağlanan əhdi qeyd edir: "Bismillahi-r-rəhmani-r-rəhim! Bu Həbib ibn Məsləmə tərfindən Hurmuz torpağı – Curzanın Tiflis əhlinə verilən fərmandır! (O) sizin həyat və əmlakınız, kilsə və monastırlarınız, hücrə və dini ibadətləriniz üçün təminatdır! (Bu şərtlə ki,) hər bir ev əhli üzərinə tam bir dinar – az miqdarda cizyə qoyulur! (على الاقرار بصغار الجزية)".[12]

Əl-Yaqubi Tiflis əmirliyi haqqında belə yazır: "Bundan sonra Xalid Kisala (Qazax) gəlir və burada dayanır. O buradan ibn Attaba müraciət edir və o itaətini izhar edərək onun yanına gəlir və aman istəyir. Xalid də ona aman verir və soruşur: "Əs-Sanariyyə sənin itaətindədir!" Məhəmməd ibn Attab ona cavab verdi: "Onlar mənim itaətimdə deyildirlər". Onda Xalid onların üstünə getdi. Curzanda onlarla üz-üzə gəldi, onları məğlub etdi, mal-qaralarını aldı. Sonra onları sülhə çağırdı və üç min madyan və iyirmi min qoyun almaq şərtilə onlarla sülh bağlayır.[13] "Ərminiyyə ayağa qalxır. Buradakı ərəb əhali (ərəblər), batriklər və mütəğəlliblər hərəkətə gəlirlər. Dağların və Bəb əl-Əbvabın hakimləri onlara məxsus torpaqları tuturlar. Sultanın hakimiyyəti zəifləyir, əl-Vasiq Xalid ibn Yəzid ibn Məzyədi vali təyin edir, yola düşməyi əmr edir və Diyar Rabianın vilayətlərindən birini ona verir. O, böyük ordu ilə yola düşür. Ölkədəki mütəğəlliblər bu xəbəri eşitdikdə qorxurlar. Onların çoxu itaətdə qüsur

---

[10] Bəlazuri, *Fütuh əl-Buldan,* 285.
[11] Əbu Məhəmməd Əhməd ibn Əsəm əl-Kufi. *"Kitab əl-Fütuh"dan çıxarışlar (7-8-ci cildlər),* Beyrut: 1991, 366-367.
[12] Təbəri, *Tarix,* IV, 162.
[13] Əhməd ibn Əbi Yaqub Əl-Yaqubi, *Tarix. II cild. Tahqiq Abd-Al Amir Mihnə*, Beyrut: Şirkət-əl Aalami. 2010, II, 422.

etmədikləri haqda yazırlar və hədiyyələr göndərirlər. O deyir: "Mənim yanıma gələnlərdən savayı heç kimin hədiyyəsini qəbul etməyəcəyəm". Bu onların vəhşətini artırır. O, İshaq ibn İsmayıla yanına gəlmək tələbi ilə yazır. O, gəlmir. (Xalid) onun üzərinə gedir və az qalır ki, İshaqı ələ keçirsin. Xalid xəstələnir və bir neçə gün orada qalır və vəfat edir. Onu tabutda Dəbilə gətirirlər və burada dəfn edirlər. Atasının əshabələri və mövlaları Məhəmməd ibn Xalidə qoşulandan sonra o, sanarlara və Tiflis əmiri İshaqa qarşı vuruşur, o vaxtacan ki, onlar ölkədən çıxarılır və qaçırlar. Və Məhəmməd ölkə idarəsində problemlə üzləşmir.[14] "O (Buğa), Tiflis mütəğəllibi İshaq ibn İsmayıla məktub yazaraq yanına gəlməyi tələb edir. O da (cavabında) yazır ki, Sultanın itaətindən çıxmamışdır. Əgər ona pul lazımdırsa verər, əgər adamlar lazımdırsa göndərər, lakin, özünün gəlməyi mümkün deyil. Buğa ona qarşı gedir, vuruşur və qalib gəlir. Onun boynunu vurur, başını Sultana göndərir. Sonra sanarların üzərinə gedir və onlarla vuruşur. Sanarlar ona qalib gəlir, ordusunu darmadağın edirlər və onu qaçmağa məcbur edirlər. O (Buğa) kimə ki, aman vermişdi, onları təqib etməyə və tutmağa (həbs etməyə) başlayır. Nəticədə Onlardan (amannamə sahiblərindən) bir camaat qaçır və rumluların, xəzərlərin və səqaliblərin hökmdarları yazışaraq əlaqəyə girirlər və böyük qüvvə toplayırlar. Bu haqda əl-Mütəvəkkilə xəbər verirlər. O Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyəd əş-Şeybanini ölkəyə göndərir və o, ölkəyə gəldikdə hərəkətə keçənlər sakitləşirlər. Məhəmməd onlara verilmiş amannaməni yeniləyir.[15]

## III. Orta əsr ərəb mənbələrində Tiflis

Orta əsr müəlliflərindən olan İbn Xordadbeh belə qeyd edir: "Əl-Cərbi şimal ölkəsidir və məmləkətin dörddə birini təşkil edir. Şimalın İspəhbuzu (canişin-hərbi rəis) farsların dövründə Azərbazqan (Azərbaycan) İspəhbuz adlanırdı...[16] "Birinci Ərminiyyə: əs-Sisəcan, Arran, Tiflis, Bərdə, Beyləqan, Qəbələ, Şərvan. İkinci Ərminiyyə: Curzan, Suğdəbil, Bab Feyruz Qubad, əl-Lakz. Arran, Curzan, əs-Sisəcan vilayətləri xəzərlərin, Dəbil, Nəşavə, Sirac, Bağrəvənd, Xilat, Bacuneys rumların ölkəsindədir.[17]

---

[14] Yaqubi, *Tarix*. II, 443-444.
[15] Yaqubi, *Tarix*. II, 454.
[16] İbn Xordadbeh, *Kitab əl-məsalik və-l-mamalik*, Leyden: E.J.Brill. 1967, 188.
[17] İbn Xordadbeh, *Kitab əl-məsalik*, 122.

Orta əsr ərəbdilli müəlliflərdən olan əl-Məsudi "Murucuz-zəhəb" adlı əsərində bunları qeyd edir: "**əl-Abxaz** - İndi Qabx (Qafqaz) dağları, qalaları və Bab əl-Əbvaba qayıdaq, bu ərazinin sakinləri haqqında ümumi xəbər vermiş olsaq əl-Lan ölkəsi yanında xristian dininə sitayiş edən Abxaz ölkəsi yerləşir. Bu vaxt onların hökmdarı var idi. (əl-Lan ölkəsi onlara məlum idi, onlar Qabx dağı ilə bitişik idilər. Sonra Abxaz Curiya məmləkətinə qovuşur. Onlar (curiyalılar) xristianlığa etiqad edən və Curzan (mətndə Xəzran) adlanan böyük ümmət(-dən) idilər. Bu vaxtlar onların hökmdarı var idi.) Ona ət-Tabii deyirdilər. Bu ət-Tabiinin məmləkətində Zül-Qərneyn məscidi yerləşir. Abxazlar və gürcülər Tiflis qalasının sahibinə cizyə verirdilər. Bu (tabeçilik) Tiflis fəth ediləndən, burada müsəlmanlar məskunlaşandan Mütəvəkkilin günlərinə qədər belə idi. Burada İshaq ibn İsmail adlanan şəxs var idi. O ətrafındakı müsəlmanların və digər xalqların yalnız özünə tabe olması və özünə cizyə verilməsi ilə tanınırdı. Bu xalqların işləri yüksəldi, Mütəvəkkil oraya ordu göndərdi və onlar Tiflis sərhəd qalasının yanında dayandılar və müharibə vəziyyətini aldılar və şəhəri qılıncla aldılar. İshaq ibn İsmail öldürüldü. İshaq ibn İsmail nahiyədə mutəğəllib (müdafiə edən) idi. Bu məlumatların zikr edilməsi uzun çəkir, bu hadisə bu ərazilərin və bu ərazilərdəki hadisələrin məlumatlarından xəbərdar olanlar arasında məşhurdur. Onu (İshaq ibn İsmaili) Qureyşin Bəni Umeyyə ailəsindən olan biri kimi və ya Bəni Umeyyənin sonradan mövlası (azad edilmiş qulu) kimi görürəm. Bu hadisədən sonra müsəlmanların bu qayədə (İslamın müdafiəsi istiqamətində) nüfuzu qırıldı. Onların ətrafındakı məmləkətlərdən onlara tabe olanlar tabeçiliyindən çıxdılar və Tiflis ərazisinin çoxu əlindən çıxdı. İslam ölkələrindən Tiflis sərhəd şəhərinə gediş-gəliş kəsildi, çünki onların arasında kafirlər var idi. Bildiyimiz kimi bu qalanın ətrafında mühit belə idi və qeyd etdiyimiz kimi ətrafı (kafir) məmləkətləri ilə əhatələnmişdi, əhalisi çox qüvvətli və cəsur idilər. **Əs-Sanariyyə məmləkəti** – Curziya ölkəsi ilə Samsxi adlanan yer sərhəddir. Buranın xalqı xristian və cahildirlər. Ölkənin hökmdarı yoxdur. Bundan o yana Tiflis sərhəd rayonu ilə "Alan qapısı" qalası arasında Sanariya ölkəsi yerləşir. Hökmdarı Koriskusdur, bu ad digər hökmdarları üçün də geniş yayılandır. Əhalisi xristianlığa etiqad edir. Bu xristianlar iddia edirlər ki, onlar mudarlı (şimal ərəbləri)

Nizar bin Məad adlı ərəbdəndirlər. Onlar Aqildən çıxmışlar, çox qədim zamanlardan burada məskunlaşıblar. Onlar burada bir çox millətə tanışdırlar...[18]

Əl-Məsudi "Kitab ət-tənbih və-l-işraf" adlı əsərində belə qeyd edir: "əl-Kurr çayı Tiflis ölkəsindən və Curzan ərazisindəki Suğdəbil şəhərindən, sonra Bərdə ölkəsindən keçir və Arras çayı ilə birləşir, hansı ki, həm də Varsan çayıdır. Onlar ikisi bərabər birləşib cəm olurlar.[19]

İbn Havqəl Tiflis şəhərini belə təsvir edir: "Tiflis Bab əl-Əbvabdan kiçik şəhərdir. ...Bu şəhər hər tərəfdən düşmən əhatəsində olan mühüm sərhəd yeridir. Tiveriadada olan hamamlardan burada da vardır. Onların suyu odsuz qaynayır. Şəhər Kür çayı üstündədir. ...Tiflis əhalisi xaricdən gələnlərə qarşı əminlik və xeyirxahlıq göstərirlər. Onlar təsadüfən buraya gəlib çıxan və azacıq düşüncə və biliyi olan hər kəsə dostcasına yanaşırlar. Onlar qədim nəzəriyyələrə (təlimlərə) əsasən sünnilik tərəfdarlarının fikirlərini müdafiə edirlər. Tiflislilər hədis haqqında elmlərlə çox məşğul olur və bu elm ilə məşğul olanlara hörmət edirlər. ...Arranda Bərdə, əl-Bab və Tiflisdən (başqa) böyük şəhərlər yoxdur.[20] "Qırmız Bab əl-Əbvabın hüdudlarından Tiflisədək bütün Arranda, Arras çayı yaxınlığından Curzan nahiyələrinədək hər yerdə vardır. Bu yer isə (Curzan) Azərbaycan hökmdarının idarəsi ilə dağlıq yerdədir.[21]

Əl-İstəxri "Kitab məsalik əl-mamalik" adlı əsərində bunları qeyd edir: "...Tiflis böyüklükdə Bab əl-Əbvab kimi deyil, onun ətrafında palçıqdan iki divar, divarda isə üç darvaza var. ...Tiflis sərhəd şəhərdir. ...Arranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhər yoxdur.[22] "Arranın sərhəddi Bab əl-Əbvabdan Tiflisə, Araz çayı yaxınlığındakı Haciran adlı yerədəkdir".[23]

Əl-Müqəddəsi "Əhsən ət-təqasim" adlı əsərində belə qeyd edir: "Arran dəniz və Arras çayı arasında adaya oxşayır və bütün iqlimin 1/3-i təşkil edir. Əl-Məlik çayı buranı uzununa bölür. Paytaxtı – Bərdədir; şəhərlərindən Tiflis, əl-Qala, Xunan,

---

[18] Əl-Məsudi. *Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir.* C.1. Beyrut: əl-Məktəbət-ul Asriyyə, 2005, I, 155-156; Vəlixanlı N.M. *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında*, Bakı: Elm, 1974, 49-74.

[19] Əl-Məsudi. *Kitab ət-tənbih və-l-işraf,* Leyden: E.J.Brill. 1983, 62; Vəlixanlı. *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları*, 74-75.

[20] İbn Havqəl, *Kitab əl-masalik va-l-mamalik,* Leyden: E.J.Brill. 1872, 109-110; Vəlixanlı, *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları*, 102-126.

[21] İbn Havqəl, *Kitab əl-masalik*, 111.

[22] Əl-İstəxri. *Kitab məsalik əl-mamalik,* Leyden: E.J.Brill. 1870, 185-187.

[23] Əl-İstəxri *Kitab məsalik*, 190.

Şəmkur, Cənzə, Bərdic, əş-Şəmaxiyyə, Şərvan, Bakuh, əş-Şəbran, Bab əl-Əbvab, əl-Abxaz, Şəkki, Qəbələ, Məlazkərd, Təbla (Telavi)”.[24]

İbn əl-Xəldun belə qeyd edir: “Artıq bizə h. 104-cü ildə (m.723) onun (Cərrah əl-Həkəminin) xəzərlər ölkəsinə girişi və onun qabağında onların məğlubiyyəti haqqında məlumat təqdim edildi. Həqiqətən o, onların içinə daxil olur və orada möhkəmlənir. Bələncərə sahib olur və sonra onu yenidən sahibinə qaytarır. Bu zaman qış düşdüyü üçün qışı burada keçirir. Xəlifə Hişam onun əməllərini təsdiqləyir və sonra onu Ərminiyyə valisi təyin edir. Və O (Cərrah) h. 111-ci ildə (m.729) Tiflis nahiyəsindən olan (və ya Tiflis nahiyəsi tərəfdən) Turkuman ölkəsinə daxil oldu (فدخل بلاد التُركُمان من ناحية تفليس). Onların şəhəri Beydanı fəth etdi və zəfər qazandı. Allan nahiyəsi tərəfdən (mətndə əl-Laf) xəzərlər və türklər toplaşdılar. H.112-ci ildə (m.730) Cərrah onlara qarşı çıxdı və Ərdəbil düzənliyində onlarla qarşılaşdı. Şiddətli döyüş oldu. Onun üstünə gələn düşmən çoxaldı və (Cərrah) və yanındakılar şəhid oldu. Qardaşı Həccac Ərminiyyədə onun xələfi oldu. Xəzərlərin – hansı ki, turkumanlardır (الخزر و هم التركمان) – döyüşmə həvəsi o qədər artdı ki, ölkənin içinə doğru irəlilədilər və Mosula yaxınlaşdılar.[25]

İbn əl-Əsir “əl-Kamil fit-Tarix” əsərində Tiflis haqqında belə deyir: “...Kür böyük bir çaydır Tiflis onun qərb tərəfində və Suğdəbil onun şərq tərəfindədir. O (Zirək), Kür çayını keçib Tiflis meydanına düşdü. Buğa bunun kimi Əbulabbas əl-Varsani (mənbədə əl-Varisi الوارثى) ən-Nasranini də, istər ərəb olsun, istər əcəm – bütün Ərminiyyə əhalisinin üzərinə göndərmişdi. O (Əbulabbas) Tiflisə şəhərin yan qapısından girdi. Bəni Uməyyə ağalarından İshaq ibn İsmayıl Tiflisdən Zirəkə qarşı çıxdı və meydanın qabağında onunla üzbəüz gəldi. Buğa körpünün üstündə bir hündür təpədə durub Zirəkin və Əbulabbasın gördüyü işlərə baxırdı. Buğa neftçiləri çağırdı, şəhərə od vurub yandırdı. Şəhər sənubər (şam) ağacından tikilmişdi. İshaq ibn İsmayıl yanğını görüb şəhərə döndü. Gördü ki, od bunun sarayını, sarayının ətrafını, hətta özünü də bürümüşdür. Ondan sonra türklər və məğriblilər gəldilər, onu və oğlu Öməri əsir götürdülər, hər ikisini Buğanın hüzuruna gətirdilər. Buğanın əmri ilə İshaqın boynunu vurub cəsədini Kür çayının üstündə asdılar. İshaq böyükbaşlı, çəpgözlu, yoğun və qoca

---

[24] Əl-Müqəddəsi. *Əhsən ət-təqasim fi mərifəti əl-əqalim,* Leyden: BGA, E.J.Brill. 1967, 374.
[25] Əbdürrəhman ibn Xəldun. *Tarix-i ibn Xəldun. Əl-Musəmma divan əl-mubtəda və-l xəbər fi tarix əl-Ərəb və-l Bərbər... Əl-Cuz-us Səlis (III cild).* Beyrut: Dar-əl Fikr, 2000, III, 111.

bir adam idi. Şəhərdə 50 minə qədər adam yandı. Yanmayıb salamat qalanlarını da əsir götürdülər, ölənləri asdılar.[26]

Əsərin IX cildində İbn əl-Əsir belə qeyd edir: "514 (1120)-cü ildə gürcülər İslam vilayətlərinə qarşı çıxdılar... Bu ilin əvvəlində onlar qıpçaq və başqa qonşu millətlərlə birlikdə meydana çıxdılar ...Gürcülər qayıdıb İslam vilayətlərini qarət etdikdən sonra gedib Tiflis şəhərini mühasirə etdilər. Şəhərdə yaşayanlarla müharibə şiddətləndi, iş böyüdü və şəhər əhalisinin dolanacağı çətinləşdi. Bu mühasirə 515 (1121)-ci ilə qədər davam etdi. Nəhayət, gürcülər şəhəri zorla ələ aldılar. Şəhər əhalisi yaxında həlak olacaqlarını gördükdə aman istəmək üçün şəhərin qazısını və xətibini gürcülərin yanına göndərdilərsə də gürcülər bunların sözünü eşitmədi və bunları qorxutdular. Ondan sonra zorla və zülmlə şəhərə girib ümumi qırğın və soyğunçuluq etdilər.[27]

İbn əl-Əsir gürcülərin Tiflis şəhərinə daxil olması və onu yandırmaları haqqında bunları qeyd edir: "624-cü ilin (1226-1227) rəbiə-l əvvəl ayında gürcülər Tiflisə gəldilər. O zaman orada şəhəri qoruyacaq İslam əsgəri yox idi. ...Gürcülər şəhəri aldılar, qırılmayıb sağ qalmış adamları qılıncdan keçirdilər. Sonra şəhəri Cəlaləddindən (Xarəzmşah) qoruyub saxlaya bilməyəcəklərini anlayaraq onu tamamilə yandırdılar. Bu xəbər Cəlaləddinə çatdıqda yanındakı əsgərlərlə özünü onlara çatdırmaq üçün getdisə də, orada bir adam da görmədi. Çünki, onlar şəhəri yandırıb oradan çıxmışdılar".[28]

---

[26] İbn əl-Əsir. *əl-Kamil fit-Tarix*. Beyrut: Dərul-kutubul-ilmiyyə, 1987, VI, 116.
[27] İbn əl-Əsir. *əl-Kamil fit-Tarix*. Beyrut: Dərul-kutubul-ilmiyyə, 2003, IX, 194.
[28] İbn əl-Əsir. *əl-Kamil-fit-Tarix*. IX, 472.

**Nəticə**

Beləliklə, tədqiqat nəticəsində istər Tiflis şəhərinin, istərsə də Tiflis əmirliyinin Azərbaycan tarixşünaslığında IX-XI əsrlər arasında mövcud olan feodal dövlətlər – Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Haşimi Dərbəndilər, Dumanis əmirliyi və xristian Albaniyasının birbaşa varisi olan Şəki məlikliyi ilə yanaşı öyrənilməsinin vacibliyi məlum olmuşdur. Sosial-siyasi quruluş, mədəni, etnik və dini mənsubiyyət və ərazi baxımından eyni coğrafi mövqeyə mənsubluq bu dövlətləri ayrı-ayrı dəyərləndirməyə imkan vermir. Başqa qonşu ölkələrin, xüsusilə gürcülərin Tiflis əmirliyinə sahib çıxmaq iddiaları isə kökündən yanlış addımdır. Belə ki, bu dövlət mədəni, dini, etnik irs cəhətdən gürcülərə tamamilə yad olduğu kimi, mövcud olduğu ərazi də Arran-Şimali Azərbaycan torpaqları olmuşdur.

**Mənbə və ədəbiyyat siyahısı**

ƏBDÜRRƏHMAN IBN XƏLDUN, *Tarix-i ibn Xəldun. Əl-Musəmma divan əl-mubtəda və-l xəbər fi tarix əl-Ərəb və-l Bərbər... Əl-Cuz-us Səlis (III cild)*. Beyrut: Dar-əl Fikr, 2000.

ƏBU CƏFƏR MUHAMMƏD IBN CƏRIR ƏT-TƏBƏRI, "Tarix ər-Rusul va-l-Muluk", *Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Cabir İskəndərli // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası* içinde, AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı: "Nurlan" nəşriyyatı, 2005.

ƏBU CƏFƏR MUHAMMƏD IBN CƏRIR ƏT-TƏBƏRI, *Tarix ər-Rusul və-l Muluk, 4-cü cild (Tahqiq Muhamməd Əbu-l Fadl İbrahim),* Qahirə: Daru-l Maarif bi Mısr, 1970.

ƏBU MƏHAMMƏD ƏHMƏD IBN ƏSƏM ƏL-KUFI, *Kitab əl-Futuh (Təhqiq Ali Şiri) əl-Cuz-ul-Əvvəl, əl-Cuz-us Sani,* Beyrut: Dar-ul Ədva, 1991.

ƏBU MƏHƏMMƏD ƏHMƏD IBN ƏSƏM ƏL-KUFI, *"Kitab əl-Fütuh"dan çıxarışlar (7-8-ci cildlər),* Beyrut: 1991.

ƏHMƏD IBN ƏBI YAQUB ƏL-YAQUBI, *Tarix. I cild. Tahqiq Abd-Al Amir Mihnə*, Beyrut: Şirkət-əl Aalami. 2010.

ƏHMƏD IBN YƏHYA IBN CABIR ƏL-BƏLAZURI, "Kitəb Futuhi-l Buldən", *Azərbaycanın VII – IX əsrlər tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Hikmət Əkbərov. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Vətən tarixi seriyası* içinde, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı: "Nurlan" nəşriyyatı, 2005.

ƏHMƏD IBN YƏHYA IBN CABIR ƏL-BƏLAZURI, *Kitab Futuh əl-Buldan,* Beyrut: 1987.

ƏL-İSTƏXRI, *Kitab məsalik əl-mamalik,* Leyden: E.J.Brill. 1870.

ƏL-MƏSUDI, *Kitab ət-tənbih və-l-işraf,* Leyden: E.J.Brill. 1983.

-----------------,*Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir.* C.1. Beyrut: əl-Məktəbət-ul Asriyyə, 2005.

ƏL-MÜQƏDDƏSI, *Əhsən ət-təqasim fi mərifəti əl-əqalim,* Leyden: BGA, E.J.Brill. 1967.

GÜMÜŞ, N,, *İlk Dönem İslam-Gürcü İlişkileri,* Rize: Karadeniz Basın yayın, 2007.

İBN ƏL-ƏSIR, *əl-Kamil fit-Tarix IX cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, 2003.

-------------, *əl-Kamil fit-Tarix. VI cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, 1987.

İBN HAVQƏL, *Kitab əl-masalik va-l-mamalik,* Leyden: E.J.Brill. 1872.

İBN XORDADBEH, *Kitab əl-məsalik və-l-mamalik,* Leyden: E.J.Brill. 1967.

KALANKATUKLU, M., *Albaniya tarixi. Mxitar Qoş – Alban salnaməsi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur*, Bakı: “Elm” nəşriyyatı 1993.

ŞIHABƏDDIN ƏBU ABDULLAH YAQUT, *Mucəm əl-Buldən. II cild,* Beyrut: Dar Sader, 1977.

VƏLIXANLI, N.M., *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında*, Bakı: Elm, 1974.